DOI: doi.org/10.61226/12.2.2023/20252.18
UOT: 368
Camal HACIYEV
Azərbaycan Turizm və Menecment Universiteti,
iqtisad üzrə fəlsəfə doktoru, dosent
jamalhajiyev@vandex.ru
https://orcid.org/0000-0002-6409-3010

Maral ƏHMƏDOVA
Azərbaycan Turizm və Menecment Universiteti,
magistrant
maralehmedova8@gmail.com
https://orcid.org/0009-0000-3722-3724

AZƏRBAYCANDA HƏYAT SIĞORTASININ İNKİŞAF İSTİQAMƏTLƏRİ VƏ MÖVCUD PROBLEMLƏRİ

Xülasə: Müasir dövrdə həyat sığortası yalnız maliyyə təhlükəsizliyi vasitəsi kimi deyil, həm də sosial rifahın formalaşdırılmasında vacib alət kimi çıxış edir. Bütün dünyada bu sahənin aktuallığı durmadan artır; çünki insanların gözlənilməz risklərə qarşı qorunma ehtiyacı getdikcə daha çox önə çıxır. Xüsusilə inkişaf etmiş ölkələrdə həyat sığortasına olan marağın artması, bu xidmətin ailələrin uzunmüddətli planlamasında mühüm yer tutduğunu göstərir. Azərbaycanda da həyat sığortasına maraq son illərdə artmaqdadır və bu, həm iqtisadi sabitliyin güclənməsi, həm də əhalinin sığorta məlumatlılığının yüksəlməsi ilə bağlıdır.

Lakin buna baxmayaraq, ölkədə həyat sığortasının ümumi sığorta bazarındakı payı hələ də nisbətən aşağıdır. Növlər üzrə dinamikanın təhlili göstərir ki, könüllü həyat sığortası məhsullarına maraq artsa da, icbari həyat sığortası sahəsində ciddi təşviqat və maarifləndirmə tədbirlərinə ehtiyac qalır. Qlobal səviyyədə həyat sığortasının sığorta bazarındakı rolu sürətlə artarkən, Azərbaycanın bu prosesə uyğunlaşması və bazar payının artırılması prioritet məsələyə çevrilməkdədir. Bütün bu faktorlar həyat sığortasının bu gün üçün nə qədər aktuallığını təsdiqləyir və bu mövzuda tədqiqatların zəruriliyini ön plana çıxarır.

Bu məqalədə Azərbaycanda fəaliyyət göstərən ümumi sığorta bazarının cari vəziyyəti təhlil olunmuş, həyat sığortasının müxtəlif növləri üzrə inkişaf dinamikası araşdırılmış və beynəlxalq təcrübə fonunda bu sahənin mövcud vəziyyəti müqayisəli şəkildə analiz edilmişdir.

Məqalədə müxtəlif tədqiqat metodlarından, o cümlədən iqtisadi-statistik, sorğu anketi və müqayisəli təhlil və s. istifadə edilmişdir.

Açar sözlər: Həyat sığortası, sığorta bazarı, əhalinin sığorta məlumatlılığı, sığorta növləri, aktual problemlər.

Jamal HAJIYEV, Maral AHMADOVA

THE CURRENT STATE AND DEVELOPMENT PROSPECTS OF LIFE INSURANCE IN AZERBAIJAN

Abstract: In the modern era, life insurance functions not only as a tool for financial security but also as an essential instrument in ensuring social welfare. Globally, the relevance of this sector continues to grow, driven by the increasing need for individuals to be protected

against unforeseen risks. Particularly in developed countries, the rising interest in life insurance indicates its significant role in long-term family planning. In Azerbaijan as well, public interest in life insurance has been on the rise in recent years, a trend attributed to both the strengthening of economic stability and the growing awareness of the population regarding insurance.

Nevertheless, despite this positive momentum, the share of life insurance within the overall insurance market of the country remains relatively low. An analysis of trends by insurance types reveals that while voluntary life insurance products are gaining traction, the field of compulsory life insurance still requires substantial promotional and educational efforts. As the role of life insurance in global insurance markets expands rapidly, Azerbaijan must align with this trajectory and prioritize increasing its market share. These factors collectively underscore the current relevance of life insurance and highlight the necessity for continued research on this topic.

This paper analyzes the current state of the general insurance market operating in Azerbaijan, examines the development dynamics of various types of life insurance, and provides a comparative analysis of the sector's current condition in the context of international experience.

In the preparation of this paper, a range of research methods were employed, including economic-statistical analysis, survey questionnaires, and comparative evaluation techniques.
Keywords: Life insurance, insurance market, public insurance awareness, types of insurance, current challenges.

Джамал ГАДЖИЕВ, Марал АХМЕДОВА

НАПРАВЛЕНИЯ РАЗВИТИЯ И СУЩЕСТВУЮЩИЕ ПРОБЛЕМЫ СТРАХОВАНИЯ ЖИЗНИ В АЗЕРБАЙДЖАНЕ

Абстракт: В современную эпоху страхование жизни выступает не только как средство финансовой безопасности, но и как важный инструмент формирования социального благосостояния. Актуальность данной сферы неуклонно растёт во всём мире, поскольку потребность людей в защите от непредвиденных рисков становится всё более значимой. Особенно в развитых странах усиливающийся интерес к страхованию жизни свидетельствует о его важной роли в долгосрочном семейном планировании. В Азербайджане также наблюдается рост интереса к страхованию жизни, что связано как с укреплением экономической стабильности, так и с повышением уровня страховой осведомлённости населения.

Тем не менее, доля страхования жизни в общем страховом рынке страны остаётся относительно низкой. Анализ динамики по видам страхования показывает, что, несмотря на рост интереса к добровольным страховым продуктам, в области обязательного страхования жизни остаётся потребность в активной пропаганде и просветительской деятельности. На фоне стремительного роста роли страхования жизни в мировом страховом секторе, адаптация Азербайджана к этим процессам и увеличение доли рынка становятся приоритетными задачами. Все эти факторы подчёркивают актуальность рассматриваемой темы и необходимость проведения дальнейших исследований в данной области.

В статье проанализировано текущее состояние общего страхового рынка в Азербайджане, изучена динамика развития страхования жизни по различным видам, а также проведён сравнительный анализ положения данной сферы на фоне международного опыта.

В исследовании использованы различные методы, в том числе экономико-статистический анализ, анкетирование, сравнительный метод и другие.

Ключевые слова: страхование жизни, страховой рынок, страховая осведомлённость населения, виды страхования, актуальные проблемы.

Giriş

Müasir iqtisadi mühitdə əhalinin sosial rifahının təmin olunması və maliyyə sabitliyinin qorunması məqsədilə həyat sığortası mühüm vasitələrdən biri kimi çıxış edir. Bu sahə vətəndaşların gələcək risklərə qarşı qorunması və qəfil baş verə biləcək hadisələr zamanı maddi itkilərin kompensasiya edilməsi baxımından əhəmiyyətli funksiyalara malikdir. Bu sahənin səmərəli şəkildə təşkili və idarə edilməsi istər makroiqtisadi, istərsə də mikroiqtisadi səviyyədə mövcud problemlərin aradan qaldırılmasına mühüm töhfə verir. Məhz bu səbəbdən də dövlət orqanları uzun illərdir ki, sığorta bazarının inkişafına xüsusi diqqət ayırır və bu maraq hazırda daha da artmaqdadır. Dövlətin həyata keçirdiyi iqtisadi siyasətin mühüm istiqamətlərindən biri də sığorta sahəsinin inkişafını əhatə edir. Müasir iqtisadi şəraitdə sığorta sisteminin düzgün və kompleks şəkildə təşkili olmadan nə iqtisadi sabitliyə, nə davamlı inkişafa, nə də səmərəli nəticələrə nail olmaq mümkündür. Bu səbəbdən də sığorta siyasəti dövlətin iqtisadi prioritetləri sırasında önəmli yer tutur və daim diqqət mərkəzində saxlanılır.

Azərbaycan Respublikasında sığorta fəaliyyətinin səmərəli təşkili, idarə olunması, bu sahənin dayanıqlı və davamlı inkişafının təmin edilməsi məqsədilə bir sıra qanunvericilik aktları qəbul edilmiş, müvafiq normativ sənədlər və qaydalar müəyyən edilmişdir. Müstəqil Azərbaycanda sığorta fəaliyyəti XX əsrin 90-cı illərinin əvvəlindən etibarən formalaşmağa başlamışdır. Yeni yaranan bu sistemin fəaliyyətinin əlaqələndirilməsi məqsədilə 1991-ci ildə Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Dövlət Sığorta Nəzarəti Xidməti təsis edilmiş və ardınca sığorta sektorunun tənzimlənməsi üçün normativ-hüquqi sənədlər qəbul olunmuşdur. 1993-cü ilin yanvar ayında Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən "Sığorta haqqında" ilk qanun qəbul edilmiş, bu qanun 1999-cu ildə yenidən işlənmiş və daha da təkmilləşdirilərək 2007-ci ildə "Sığorta fəaliyyəti haqqında" Qanun kimi təsdiq edilmişdir.

Azərbaycanda həyat sığortası bazarı son illərdə tədricən inkişaf etsə də, bu sahənin daha da genişlənməsi üçün kompleks tədbirlərin həyata keçirilməsi zəruridir. Aparılmış tədqiqatlar göstərir ki, hazırda Azərbaycanda sığorta sektorunun Ümumi Daxili Məhsuldakı xüsusi çəkisi hələ də 1%-ə çatmır. Adambaşına düşən sığorta haqları və ümumi sığorta mükafatları ilə bağlı göstəricilər qlobal səviyyə ilə müqayisədə təxminən 15 dəfə aşağıdır. Bu fərq bir daha sübut edir ki, ölkədə sığorta bazarının struktur baxımından yenidən qurulması, inkişaf etdirilməsi və dünya standartlarına yaxınlaşdırılması dövlətin əsas hədəflərindəndir. Bu hədəfə çatmaq üçün dövlətin təşəbbüsü ilə sığorta sektorunda davamlı islahatlar həyata keçirilir. Bu islahatlar minimum nizamnamə kapitalı həddinin tədricən artırılması, sığorta şirkətlərinin kapitallaşma səviyyəsinin yüksəldilməsi, korporativ idarəetmənin təkmilləşdirilməsi, sistem daxilində şəffaflığın və rəqabətliliyin gücləndirilməsi kimi istiqamətləri əhatə edir.

Azərbaycanda həyat sığortası bazarının təşəkkül tapması, onun inkişaf dinamikasının və mövcud meyillərinin təhlili üçün əsas göstəricilərdən biri sığorta şirkətlərinin minimum nizamnamə kapitalı tələblərinə uyğunluq səviyyəsidir. Bu göstərici bazarın ümumi vəziyyətinin qiymətləndirilməsində mühüm rol oynayır. Nizamnamə kapitalı, sığorta təşkilatlarının maliyyə sabitliyinin, öhdəliklərini yerinə yetirmə qabiliyyətinin və bazarda rəqabətə davamlılığının təmin olunmasında əsas vasitələrdən biri kimi çıxış edir. Bu amili nəzərə alaraq, 2010-cu il 29 noyabr tarixində Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən sığorta şirkətləri üçün minimum nizamnamə kapitalının müəyyənləşdirilməsi ilə əlaqədar qərar qəbul edildi. Bu qərar ilə Azərbaycan Respublikasında sığorta bazarının tənzimlənməsi məqsədilə minimum nizamnamə kapitalı ilə bağlı tələblər ilk dəfə 24 yanvar 2014-cü il tarixində Maliyyə Nazirliyinin qərarı ilə təsbit olunmuş və bu tələblərə əsasən, həyat sığortası şirkətləri üçün

minimum 10 milyon manat, qeyri-həyat sığortası şirkətləri üçün 5 milyon manat, təkrarsığorta fəaliyyəti ilə məşğul olan şirkətlər üçün isə 20 milyon manat həcmində nizamnamə kapitalı müəyyən olunmuşdur.

Cədvəl 1.

01.01.2025-ci il üçün Azərbaycanda həyat sığortası ilə məşğul olan şirkətlərin nizamnamə

№	**Həyat sığortası ilə məşğul olan sığorta şirkətləri**	**Nizamnamə Kapitalı min manatla**	**Kapital üzrə bazar payı (%)**
1	"Atəşgah Həyat" Sığorta Şirkəti Açıq Səhmdar Cəmiyyəti	6500	2,06
2	"Paşa Həyat Sığorta" Açıq Səhmdar Cəmiyyəti	40250	12,77
3	"Qala Həyat" Sığorta Şirkəti Açıq Səhmdar Cəmiyyəti	13042	4,14
4	"Xalq Həyat" Sığorta Şirkəti Açıq Səhmdar Cəmiyyəti	15000	4,76
5	"Meqa Həyat Sığorta" Açıq Səhmdar Cəmiyyəti	11000	3,49

kapitalı

Mənbə: https://www.asa.az/companies

Məlumatların təhlili göstərir ki, illər üzrə nizamnamə kapitalının həcmi baxımından bazarda lider mövqedə "Paşa Həyat" Sığorta ASC olmuşdur. Bu şirkət ümumi sığorta bazarının 12,77%-i özündə cəmləşdirmişdir.

2020–2024-cü illər ərzində həyat sığortası bazarının inkişaf meyllərini təhlil etmək məqsədilə müvafiq dövr üzrə həyat sığortası sinifləri üzrə toplanmış sığorta haqları və həyata keçirilmiş sığorta ödənişləri üzrə göstəricilər təhlil edilmişdir. Bu dövr həm pandemiya sonrası iqtisadi canlanmanı, həm də sığorta sistemindəki struktur dəyişiklikləri əhatə etdiyindən təhlil üçün olduqca önəmlidir. Cədvəldə təqdim edilən məlumatlar vasitəsilə həyat sığortası sektorunda müşahidə olunan dəyişikliklər daha dəqiq şəkildə analiz edilə bilər.

Cədvəl 2.

Azərbaycanda həyat sığortası sinifləri üzrə hesablanmış sığorta haqları, sığorta ödənişləri və sığorta haqlarının sığorta ödənişlərinə olan nisbətinin faizlə ifadəsi (milyon manatla)

Sığorta sinifləri	2020			2021			2022			2023			2024		
	Haqlar	Ödəniş	Faiz	Haqlar	Ödəniş	Faiz	Haqlar	Ödəniş	Faiz	Haqlar	Ödəniş	Faiz	Haqlar	Ödəniş	Faiz
Könüllü sığortalar üzrə–cəmi:	503	379	75	586	339	58	728	337	464	888	479	54	1011	613	61
O cümlədən:															
Həyat sığortası üzrə	250	280	112	319	235	74	425	244	576	545	294	54	643	477	74
O cümlədən:															
Həyatın yaşam sığortası	205	275	134	272	231	85	396	242	61	504	292	58	599	474	79
Həyatın ölüm halından sığortası	43	5	11	42	3	7	23	2	9	32	2	6	34	2	6
Əmək qabiliyyətinin sığortası	0,8	0	0	4	0	0	1	0,48	48	1	0,15	15	3	0,2	7
Sağalmaz xəstəliklərdən sığorta	0,5	0	0	0,9	0,027	3	1	0,60	60	5	0,05	1	6	0,5	8
İcbari sığortalar üzrə–cəmi:	225	86	38	257	119	46	242	955	395	333	108	32	341	139	41
O cümlədən:															
İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta	539	25	5	635	40	6	738	34	5	84	3	4	90	5	6
YEKUN	728	465	64	825	458	56	970	432	45	1221	587	48	1353	753	56

Mənbə: https://cbar.az/page-189/insurance

Cədvəldən də göründüyü kimi, 2020–2024-cü illər ərzində Azərbaycanda həyat sığortası sinifləri üzrə həm toplanmış sığorta haqlarında, həm də həyata keçirilmiş sığorta ödənişlərində artım müşahidə olunur. Bu artım sığorta bazarının tədricən genişləndiyini və sektorun inkişaf dinamikasının müsbət istiqamətdə olduğunu göstərir. Əhalinin həyat sığortasına olan marağının artması, eyni zamanda sığorta şirkətlərinin fəaliyyət effektivliyinin yüksəlməsi ilə izah edilə bilər. 2020-ci ildə Azərbaycanda könüllü həyat sığortası üzrə toplanmış sığorta haqları 250 milyon manat təşkil etmiş, bu isə adambaşına təxminən 25 manatlıq sığorta haqqı düşməsi deməkdir. Həmin il üzrə könüllü həyat sığortası üzrə ödənilmiş sığorta ödənişləri isə 280 milyon manat olmaqla, adambaşına təqribən 28 manatlıq ödənişə uyğun gəlmişdir. 2020-ci il üzrə Azərbaycanda icbari həyat sığortası üzrə toplanmış sığorta haqları isə 225 milyon manat təşkil etmiş, bu isə adambaşına təxminən 22,5 manatlıq sığorta haqqı düşməsi deməkdir. Həmin il üzrə icbari həyat sığortası üzrə ödənilmiş sığorta ödənişləri isə 86 milyon manat olmaqla, adambaşına təqribən 9 manatlıq ödənişə uyğun gəlmişdir.

2024-cü ildə Azərbaycanda könüllü həyat sığortası üzrə toplanmış sığorta haqları 643 milyon manat təşkil etmiş, bu isə adambaşına təxminən 63 manatlıq sığorta haqqı düşməsi deməkdir. Həmin il üzrə könüllü həyat sığortası üzrə ödənilmiş sığorta ödənişləri isə 477 milyon manat olmaqla, adambaşına təqribən 47 manatlıq ödənişə uyğun gəlmişdir. Azərbaycanda icbari həyat sığortası üzrə toplanmış sığorta haqları isə 341milyon manat təşkil etmiş, bu isə adambaşına təxminən 33 manatlıq sığorta haqqı düşməsi deməkdir. Həmin il üzrə icbari həyat sığortası üzrə ödənilmiş sığorta ödənişləri isə 139 milyon manat olmaqla, adambaşına təqribən 13,5 manatlıq ödənişə uyğun gəlmişdir.

Göstəricilər həyat sığortasının artıq sosial və iqtisadi baxımdan daha vacib bir maliyyə alətinə çevrildiyini təsdiqləyir. Ümumilikdə, qeyd olunan dövr ərzində həyat sığortası sektorunda müsbət tendensiyanın formalaşdığı aydın şəkildə nəzərə çarpır.

Həyat sığortası sahəsində müəyyən irəliləyişlər müşahidə olunsa da, bu inkişafın hələ də məhdud çərçivədə qaldığı aydın şəkildə görünür. Azərbaycanda həyat sığortası bazarı bəzi göstəricilər üzrə artım nümayiş etdirsə də, ümumi mənzərədə sektorun tam potensialından istifadə olunmadığı müşahidə edilir. Bu zəif inkişafın əsas səbəblərindən biri əhalinin həyat sığortası haqqında kifayət qədər məlumatlı olmamasıdır. İnsanlar arasında bu sahəyə dair maarifləndirmə səviyyəsi aşağıdır və sığorta mexanizmlərinin əhəmiyyəti barədə tam təsəvvür formalaşmayıb. Eyni zamanda, həyat sığortası məhsullarının məhdud çeşiddə təqdim olunması, məhsulların əhali qruplarının ehtiyaclarına tam uyğunlaşdırılmaması və sığorta şirkətlərinin innovativ yanaşmalarının yetərincə tətbiq olunmaması da sektorun inkişafını ləngidən digər amillərdəndir. Buna görə də, gələcəkdə həyat sığortası bazarının gücləndirilməsi üçün həm əhali arasında maarifləndirmə tədbirlərinin artırılması, həm də xidmət keyfiyyətinin və əlçatanlığının yüksəldilməsi vacib hesab olunur.

Nəticə

Aparılmış tədqiqatlar göstərdi ki, Azərbaycanda həyat sığortası sahəsində müəyyən inkişaf meyilləri müşahidə olunsa da, bu inkişaf hələ də məhdud miqyasda qalmaqdadır. Həyat sığortası sektorunda son illərdə həm toplanmış sığorta haqlarında, həm də həyata keçirilmiş ödənişlərdə artım qeydə alınmış və bu, sektorun müsbət dinamikasını nümayiş etdirmişdir.

Bununla yanaşı, sektorun ümumi sığorta bazarındakı payının azlığı və sığorta haqları üzrə göstəricilərin inkişaf etmiş ölkələrlə müqayisədə aşağı səviyyədə qalması, həyat sığortasının hələ də öz potensialını tam reallaşdıra bilmədiyini göstərir.

Eyni zamanda, icbari və könüllü həyat sığortası sinifləri üzrə aparılan təhlillər göstərir ki, xüsusilə könüllü həyat sığortası məhsullarına maraq artsa da, icbari sığorta sahəsində maarifləndirmə və tətbiq mexanizmləri kifayət qədər effektiv deyil. Əhalinin həyat sığortası haqqında məlumatlılıq səviyyəsinin aşağı olması, məhsulların məhdud çeşiddə təklif olunması, innovativ yanaşmaların azlığı və sığorta xidmətlərinin əlçatanlığının qeyri-kafi olması bu sahədə inkişafın əsas məhdudiyyətləri kimi çıxış edir.

Nəticə etibarilə, həyat sığortası hazırkı dövrdə təkcə maliyyə təhlükəsizliyi deyil, həm də sosial rifahın təmin olunmasında əhəmiyyətli vasitə kimi çıxış edir və bu sahənin inkişaf etdirilməsi dövlətin iqtisadi strategiyasında mühüm yer tutmalıdır.

Həyat sığortası bazarının inkişaf etdirilməsi məqsədilə bir sıra kompleks tədbirlərin həyata keçirilməsi zəruridir;

- Əhali arasında həyat sığortasının mahiyyəti, funksiyası və faydaları barədə maarifləndirici tədbirlərin həyata keçirilməsi vacibdir;
- Mövcud sığorta məhsullarının əhali qruplarının ehtiyac və gəlir səviyyələrinə uyğunlaşdırılması sığorta sektorunun cəlbediciliyini artıracaqdır;
- Sığorta xidmətlərində rəqəmsal texnologiyaların, mobil tətbiqlərin və onlayn platformaların tətbiqi ilə xidmətlərin əlçatanlığının və şəffaflığının artırılması müştəri məmnunluğunu yüksəldə və bazar iştirakçılarını stimullaşdıra bilər;
- Sığorta şirkətlərində şəffaflıq, məsuliyyətlilik və effektiv idarəetmə mexanizmlərinin tətbiqi, dövlət nəzarət orqanlarının isə nəzarət və tənzimləmə mexanizmlərinin səmərəliliyinin artırılması zəruridir;
- İcbari həyat sığortasının tətbiqində inzibati və texniki maneələrin aradan qaldırılması və bu sahəyə nəzarətin gücləndirilməsi vacibdir;
- İnkişaf etmiş ölkələrin həyat sığortası sahəsində uğurlu modelləri öyrənilərək Azərbaycana uyğunlaşdırılması, sığorta sahəsində beynəlxalq əməkdaşlıq əlaqələrinin genişləndirilməsi tövsiyə olunur.

Ədəbiyyat

1. “Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanunu, Bakı şəhəri, 25 dekabr 2007-ci il
2. “İcbari sığortalar haqqında” Azərbaycan Respublikasının Qanunu, Bakı şəhəri, 24 iyun 2011-ci il
3. İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında Azərbaycan Respublikasının Qanunu, Bakı, 22 may 2007-ci il
4. C.Hacıyev, Ş.Mustafayev ”Sığorta işi” (Tədris metodiki vəsait). Bakı-2021, səh 239.
5. C.Hacıyev, V.Nəzərov, V.Əhədov, “Azerbaycanda girişimci risk sığortasının mevcut durumu ve geliştirme yönleri” (Elmi məqalə).
6. N.N.Xudiyev, Ə.Ə.Ələkbərov, B.X.Ataşov., “Sığorta işi” (Ali məktəblər üçün dərslik). Bakı-2018, səh 416
7. Xankişiyev.B.A., "Sığorta fəaliyyətinin əsasları” (dərs vəsaiti). Bakı-2006, səh 274.
8. Abbasov A.B, Abbasov S.A. Maliyyə biznesi. Dərslik. Bakı; İqtisad Universiteti nəşriyyatı, 2014-356 səh.
9. Xudiyev N.N., “Sığortanın əsasları” (Dərs vəsaiti), Bakı, 2013
10. Abbasov İ.A., İ.C.Həsənov “Sığorta işinin təşkili”, Bakı-2013
11. Azərbaycanda siğorta sistemi: iqtisadi və sosial proseslərə multiplikator təsiri kimi. Bakı: Qanun Nəşriyyatı, 2011, 108 səh.
12. Xudiyev N.N.Sığorta işi: müasir kurs Az.DİU - 2015

13. Ələkbərov Ə.Ə. Sosial iqtisadi inkişafın maliyyə-büdcə parametrlərinin 130 tənzimlənməsi (monoqrafiya). Bakı; Elm, 2007-448 s.13.
14. Ələkbərov Ə.Ə. Azərbaycan dövlətinin sosial iqtisadi inkişafında vahid büdcə sistemi rolu. Bakı-Elm, 2005-352 s.
15. Şəkərəliyev A. Dünya iqtisadiyyatı və beynəlxalq iqtisadi münasibətlər. Bakı 1999, 670s
16. https://cbar.az/page-189/insurance
17.Xidmətlər İcbari Sığorta Bürosu
18. https://www.asa.az/companies

Məqalənin redaksiyaya daxilolma tarixi: 18.06.2025
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 30.06.2025
Məqalənin çapa qəbul olunma tarixi: 11.07. 2025